# Sizin birinizin qapısının önündə bir çay olsa və o, həmin çayda hər gün beş dəfə yuyunsa o kəsdə çirkdən bir şey qalarmı?

Əbu Hureyradan (Allah ondan razı olsun) Allahın Rəsulunun (Allahın salavatı və salamı onun üzərinə olsun) belə dediyini eşitdiyi rəvayət edilir: «Sizin birinizin qapısının önündə bir çay olsa və o, həmin çayda hər gün beş dəfə yuyunsa o kəsdə çirkdən bir şey qalarmı?». Səhabələr: "O kəsin üzərində çirkdən heç bir şey qalmaz" dedilər. Allahın Rəsulu (Allahın salavatı və salamı onun üzərinə olsun) dedi: «Beş vaxt namaz da bunun kimidir, Allah onunla günahları silib yox edir».

[Səhih] [Müttəfəqun aleyhi(əl-Buxari və Musliminsəhih gördüyü hədislər)]

Peyğəmbər (Allahın salavatı və salamı onun üzərinə olsun) kiçik günahların və xətaların aradan qaldırılması və bağışlanması üçün hər gün qılınan beş vaxt namazı insanın qapısının ağzından axan və gündə beş dəfə yuyunduğu bir çaya bənzətmişdir. Belə birinin üzərində çirkdən və kirdən heç bir şey qalmaz.

https://www.sunnah.global/hadeeth/az/show/4968

النجاة الخيرية
ALNAJAT CHARITY
لجنة الدعوة الإلكترونية
EDC E-Da'wah Committee